# Yeniyetmələrin sosiallaşmasında həmyaşıdları ilə ünsiyyətin rolu

**Nigar Məmmədəli qızı Məmmədova**
*ADPU-nun "Pedaqoji psixologiya" kafedrasının baş müəllimi*
**E-mail:** nigar.memmedova1962@mail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., dos. N.T. Rzayeva

**Açar sözlər:** sosiallaşma, şəxsiyyətlərarası ünsiyyət, özünəqiymət, dərketmə, birgə fəaliyyət, informasiya mübadiləsi

**Ключевые слова:** социализация, межличностное общение, самооцени- вание, самопознание, совместные деятельность, обмен информацией

**Key words:** socialization, interpersonal communication, self-breeding, concepts, joint activities, information exchange

Ünsiyyət insanlar arasında əlaqələrin yaradılması və inkişafının mürəkkəb və çoxplanlı prosesidir. Ünsiyyət birgə fəaliyyətə tələbatı təmin edir. Bu prosesdə insanların bir-birini anlaması, qavraması və dərketməsi həyata keçirilir. Şəxsiyyətlərarası ünsiyyətin mühüm əhəmiyyəti onun funksiyaları ilə müəyyən olunur:

**1) İnformasiya-kommunikasiya funksiyası.** Ünsiyyət insanların bir-birinə informasiyaları ötürməsinə, bilik və fikir mübadiləsi aparmalarına, öz məqsəd və maraqlarını bildirmələrinə, praktiki bacarıq və vərdişləri, əxlaqi prinsipləri mənimsəməyə kömək edir. İnformasiya mübadiləsi həyata keçirilir.

**2) Effektiv kommunikativ funksiya.** Ünsiyyət emosional gərginlik səviyyəsini tənzimləyir, emosional fonu formalaşdırır, psixoloji sakitlik yaradır.

Real ünsiyyətdə bütün funksiyalar onun formalarından asılı olmayaraq birləşir. Ünsiyyət şəxsiyyətin təşəkkülündə mühüm rol oynayır. Daha aktiv formalaşma yeniyetməlik yaş dövründə baş verir. Yeniyetmələrin həmyaşıdları ilə ünsiyyəti və münasibəti həyati fəaliyyətdə yaranır, onun digər tərəfləri isə davranış və fəaliyyətdə müəyyən edilir.

Məktəbə adaptasiyası mərhələsində I sinif şagirdlərinin həmyaşıdları ilə ünsiyyəti ikinci plana keçir. Uşaqlar özlərinin yeni statusuna və vəzifələrinə vaxtlarını o qədər sərf edirlər ki, öz həmyaşıdlarını belə yada salmırlar. I sinif şagirdlərinin müşahidəsi göstərdi ki, uşaqlar əvvəlcə sanki bir-birləri ilə bilavasitə əlaqələrdən qaçır, hərə özünü düşünür. Lakin tədricən uşaq mühitində dostluq əlaqələri həmyaşıdları qrupunda sosial birgə fəaliyyət vərdişlərinin əldə edilməsi, özünə çoxlu dostlar tapmaq bacarığı inkişafın 8-11 yaş mərhələsində ən mühüm vəzifələrdəndir.

Yeniyetməlik yaşında məşğələlərin cəlbedici və maraqlı olması onların həmyaşıdları ilə ünsiyyət imkanlarının daha geniş olması ilə müəyyən edilir. 10-11 yaşından etibarən ünsiyyət oğlan və qızların həyatında o dərəcədə böyük əhəmiyyət kəsb edir ki, onu yaş psixologiyasında yeniyetmənin psixi həyatının müstəqil sahəsi kimi fərqləndirirlər. 12-13 yaşlarında ünsiyyət dairəsi daha da genişlənir. Bu dövrdə qrup ünsiyyəti mühüm əhəmiyyət kəsb edir. 13-14 yaşlarında isə ünsiyyət pik həddə çatır. Qrupa mənsubluq hissi həmyaşıdlarının gözündə yeniyetmənin statusunun rolunu və özünütəsdiqini müəyyən edir.

Deməli, ünsiyyət tələbatına yeniyetmənin psixi inkişafının əsas və hərəkət- verici qüvvəsi kimi xüsusi əhəmiyyət verilir. Yeniyetmə üçün həmyaşıdları ilə birlikdə olmaq çox vacibdir. Çünki belə bir mühitdə yeniyetmə özünü sərbəst hiss edir, özünün mövqeyindən məmnunluq hissi duyur. Həmyaşıdlar aləmi yeniyet- məyə başqaları ilə özünü müqayisə etməyə, bacarığını qiymətləndirməyə imkan verir.

Özünəqiymət şəxsiyyətin inkişafının ən mühüm şərtidir. Əgər əvvəllər yeniyetmələr yaşlılar qiymət verirdilər, artıq o özü-özünü qiymətləndirə bilir. Qrup birgə əyləncələr bazasında formalaşır. Emosional əhəmiyyətli insani əlaqələr səthi olaraq qalır. Birlik yeniyetməyə biz hissini duymaq imkanı verir. Bizə bölünmə (həmyaşıdlar, qrupun digər üzvləri) və onlar (yaşlılar, digər üzvlər) və "onlar" (yaşlılar, qrupun digər üzvləri) yeniyetmə üçün böyük əhəmiyyət kəsb edir.

Qrupa mənsubluq hissi şəxsi "Mən" hissi ilə güclənir. Qrupun ünvanına yaşlıların tənqidini yeniyetmələr şəxsi "Mən" hissinin zəifliyi ilə qəbul edirlər. qrupa mənsubluq yeniyetmələrin özlərinə inamını yüksəldir, onun özünütəsdiqinə imkan verir. Bəzən həmyaşıdlar qrupu yeniyetməyə illüziya gücü verir. Bu güc bəziləri üçün qrupda liderlik mövqeyini göstərmək, başqaları üçün hörmətli etibarlı dost, yoldaş olmaq üçün vacibdir. İstənilən halda fərdi istək kollektivin mövqeyi ilə bağlıdır.

Təcrübə göstərir ki, həmyaşıdları əhatəsində arzu olunan mövqeyə çata bilməmək yeniyetmələrin intizamsızlığı ilə izah olunur. Gənclərin ünsiyyətçiliyi eqosentrik ola bilər, tələbat isə onların özlərini aşkar etmələridir, sərbəst ünsiyyət onların tələbatlarını təmin edir. Sərbəst ünsiyyət təksə asudə vaxtın keçirilməsi vasitəsi deyil, həm də özünüifadə, yeni insani əlaqələrin yaradılması vasitəsidir.

Yeniyetməlik yaş dövründə ünsiyyət bir-birinə zidd olan iki cəhətlə xarakterizə olunur. Dostluqda seçicilik, iki nəfər arasında ünsiyyətdə maksimal dərəcədə tələbkarlıq təzahür edir. Bir sözlə, yeniyetmələrin ünsiyyət axtarışında yeni təcrübəni əldə etməyi, yeni rolda özünü sınaqdan keçirməyə maraq yaranır.

Yeniyetmənin həmyaşıdları ilə ünsiyyəti təkcə genişlənmir, əksinə daha da dərinləşir. Həmyaşıdları tərəfindən tanınmaq arzusu ona gətirib çıxarır ki, yeniyetmə müvafiq tələbləri yerinə yetirməyə cəhd göstərir, onun əxlaqi inkişafına ciddi təsir göstərir. Xüsusilə də həmyaşıdları qrupunda davranış normalarına təsir göstərir. Belə normaların əsasında yeniyetmənin yoldaşları ilə həmrəyliyi durur.

Müəyyən edilmişdir ki, uşağın xarici aləmə ən sadə münasibəti də başqa adama münasibət vasitəsilə əks olunur. Yeniyetmə üçün yoldaşlarla ünsiyyət hətta o dərəcədə əhəmiyyət kəsb edir ki, onunla müqayisədə təlim çox vaxt ikinci plana keçir, doğma adamlarla ünsiyyətin rolu xeyli azalır.

T.V.Draqunovanın müəyyən etdiyi kimi, yeniyetmənin həmyaşıdlarla ünsiyyəti sadəcə olaraq təlim fəaliyyəti və məktəbin hüdudları ilə məhdudlaşmır, yeni maraq, məşğələ və münasibətlər dairəsini əhatə edərək onun üçün həyatın müstəqil sahəsinə çevrilir. Uşaqların istər məktəb, istərsə də məktəbdənkənar ünsiyyətində *söhbət ə*sas yer tutur.

Psixologiyada onun iki növünü fərqləndirirlər. *Birinci növ* söhbətlərə uşaqların bir-birlərinə müxtəlif sahələri əhatə edən yeni xəbərlər haqqında məlumat verdikləri söhbətlər aiddir. *İkinci növ* söhbətlərə onların öz yoldaşlarının münasibətləri, uşaqların qarşılıqlı münasibətləri, sinifdə və ya tanış uşaqlarla baş vermiş hadisələr özlərinin xüsusi münasibətləri haqqında söhbətlər daxildir. Onlar 1) ayrı-ayrı oğlan və qızların fiziki keyfiyyətləri haqqındakı təəssüratlarını bir-birləri ilə bölüşür; 2) oğlanlarla qızların qarşılıqlı münasibətlərini və sinfin "sevgi macəralarını" təhlil edir və bir-birlərinə məlumat verirlər.

Deməli, ikinci növ söhbətlər həm rəfiqə qızların, həm də dost oğlanların ünsiyyətində olduqca böyük yer tutur. Onların çoxlu şəxsi sirləri də məhz bu sahə ilə əlaqədardr. Bu sirrlərin məzmunu müxtəlif olsa da o dost oğlanlardan və rəfiqə qızlardan hər biri və ya ikisi üçün nə isə şəxsi, subyektiv cəhətdən mühümdür. Yaxın yoldaş və dostla ünsiyyət yeniyetmənin mühakimələrinin xüsusi obyektinə çevrilir. Onlar bir-birləri üçün nümunəyə çevrilir, bir-birlərinə fəal təsir göstərirlər. Bu dövrdə oğlan və qızların fiziki və psixi inkişafında müxtəlif keyfiyyət dəyişmələri baş verir.

Həmyaşıdlarla ünsiyyət yeniyetmələrin sosiallaşmasında mühüm əhəmiyyət kəsb edir. Yeniyetmənin həmyaşıdlarla ünsiyyətində sosial birgə fəaliyyət vərdişləri, davranışın konstruktiv üsulları və qarşılıqlı münasibətlər formalaşır. Bunlarla yanaşı yeniyetmədə özünüdərk, sosial baxımdan müqayisə təşəkkül tapır.

Həmyaşıdlarla ünsiyyət yeniyetmənin özü üçün subyektiv əhəmiyyət kəsb edir. Yeniyetmənin cəhdi həmyaşıdları arasında onun mövqeyini möhkəmləndirir. “Mən” konsepsiyasının formalaşmaması, özünəinamsızlıq həmyaşıdlar qrupunda sosial norma və dəyərlərin konformluluğunun yüksəlməsi ilə müşayiət olunur. Yeniyetmə həmyaşıdından müəyyən psixoloji asılılığı, onun tipik xüsusiyyətləri və həddindən artıq konformluluğu özünü aydın göstərir.

Həmyaşıdlarından psixoloji asılılıq yeniyetmənin özünütərbiyəsində və sosiallaşmasında müsbət rol oynayır. Yeniyetmənin həmyaşıdlarının hörmətinə maraqlı olması onu yoldaşlarının fikir və rəylərinə daha həssas edir. Qeyri-məmnunluq, yoldaşlarından küskünlük yeniyetməni onun səbəbləri ətrafından düşünməyə təhrik edir.

Həmyaşıdlarından psixoloji asılılıq yeniyetmənin həyatında uğursuz ola bilər. bu asılılıq sosiallaşmaya deyil, əksinə yeniyetmənin deviant davranışına aparıb çıxara bilər. Bu o hallarda baş verə bilər ki, həmyaşıdlar qrupunda norma və dəyərlər asosial olsun, yeniyetmənin asosial davranışı ilə müşayiət olunsun. Yeniyetmə asosial qrupu o hallarda yaxşı hesab edir ki, onun ailədə və məktəbdə sosial əlaqələri formalaşsın. Belə hallarda yadda saxlamaq lazımdır ki, yeniyetmə o mühitə üstünlük verir ki, orada ona hörmətlə yanaşılır, özünü orada rahat hiss edir.

Həmyaşıdları ilə ünsiyyət prosesində yeniyetmələr bir çox çətinliklərlə qarşılaşırlar. Növbəti çətinlikləri fərqləndirək:

1) Ünsiyyət situasiyasında və həmyaşıdının qavranılmasındakı çətinliklər. Ünsiyyətdə tərəfdaşın qavranılması, ünsiyyət situasiyası birbaşa elmi psixoloji-pedaqoji parametrlərə müvafiq olan biliklərdən çox asılıdır.

2) Həmyaşıdlarla birgə fəaliyyətdə və davranışda ünsiyyət situasiyasının qeyri-adekvatlığı və fəaliyyətin xarakteri təzahür edir. Bunlarla yanaşı əlaqələrin qurulması, psixoloji komfortluğun səviyyəsi, emosional özünühissetmə təşəkkül edir. Eyni vaxtda onların bir neçəsində çətinliklər baş verir.

3) Yeniyetmənin həmyaşıdları ilə ünsiyyətindəki çətinliklər status və mövqe şəraitində yaranır. Fəaliyyətin effektivliyi o zaman yüksəlir ki, yeniyetmənin həmyaşıdları ilə şəxsiyyətlərarası münasibətləri, rollu münasibətlər pozitiv şəkildə həyata keçirilsin.

4) Həmyaşıdların fərdi psixoloji xüsusiyyətləri ünsiyyətdə, çətinliklər şəraitində təzahür edir.

5) Həmyaşıdlarla ünsiyyətdə emosional tənzimetmənin aşağı səviyyəsi kommunikasiya situasiyasında kifayət qədər çətinliklər əmələ gətirir. hər bir şəxsi xüsusiyyət ünsiyyətdə fərdi rollarla xarakterizə olunur.

6) Ünsiyyətdə qazanılmış neqativ təcrübə yeni ünsiyyət şəraitində çətinliklərə səbəb olur.

Yeniyetməlik yaşında şagirdlərin öz həmyaşıdları ilə ünsiyyəti fəaliyyətin əsas tipi olur. Şəxsi qarşılıqlı münasibətlərin sferası şəxsiyyətin formalaşması üçün mühüm əhəmiyyət kəsb edir. Həmyaşıdlarla ünsiyyətdə əxlaq normalarının mənimsənilməsi, mənəvi dəyərlər sisteminə yiyələnmə baş verir.

**Məqalənin aktuallığı.** Həmyaşıdlarından psixoloji asılılıq yeniyetmənin həyatında uğursuz ola bilər. Bu asılılıq sosiallaşmaya deyil, yeniyetmənin deviant davranışına aparıb çıxara bilər. Bu o hallarda baş verə bilər ki, həmyaşıdlar qrupunda norma və dəyərlər asosial olsun, yeniyetmənin asosial davranışı ilə müşayiət olunsun. Yeniyetmə asosial qrupu o hallarda yaxşı hesab edir ki, onun ailədə və məktəbdə sosial əlaqələri formalaşsın.

**Məqalənin elmi yeniliyi.** Şəxsiyyətlərarası ünsiyyətin mühüm əhəmiyyəti onun funksiyaları ilə müəyyən edilir. Yeniyetmələrin sosiallaşmasında onların həmyaşıdları ilə ünsiyyəti mühüm əhəmiyyət kəsb edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əzimli Q. Yaş və pedaqoji psixologiyanın müasir problemləri: Dərs vəsaiti. Bakı: ADPU, 2006.

2. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002.

3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: "TS", 2000.

4. Андреева Г.М. Уровень социальной стабильности и особенности социализации в старшем школьном возрасте // Вестник МГУ. Серия 14. Психология. - 1997. - №4. - С.31.

5. Иваненков С.П. Проблемы социализация современной молодежи. 2-е изд. доп. СПб, Синтез-Полиграф, 2003.

**Н.М. Мамедова**

## Роль общения со сверстниками в социализации подростков

## Резюме

В научной статье раскрывается роль общения подростков в группе сверстников. В статье были описаны функции межличностной связи, рассматриваются трудности, которые автор встретился в причастию с подростковыми сверстниками. Автор справедливо отметил, что формируются в общении взаимоотношения и конструктивные методы поведения с подростком со сверстниками.

**N.M. Mammadova**

## With peers in the socialization of teenagers The role of communication

## Summary

The scientific article reveals the role of communication of adolescents in the peer group. The article described the functions of interpersonal, are considered the difficulties that the author met in communion with adolescent peers. The author rightly noted that the relationship and constructive methods of behavior with a teenager with peers are formed in communication.

**Redaksiyaya daxil olub:** 06.09.2021